# ODLAR YURDU UNİVERSİTETİ
# İSTEHSALAT TƏCRÜBƏSİ PROQRAMI
**(bakalavr səviyyəsi)**

**Kafedra – « Filologiya və humanitar fənlər »**

**İxtisasın şifri və adı: 050205 – Filologiya**

**(Azərbaycan dili və ədəbiyyatı)**



**BAKI 2023**

ISBN 978-9952-8476-2-8

9 789952 847628

# ODLAR YURDU UNİVERSİTETİ
# İSTEHSALAT TƏCRÜBƏSİ PROQRAMI
## (bakalavr səviyyəsi)
## Kafedra – « Filologiya və humanitar fənlər »
## İxtisasın şifri və adı: 050205 – Filologiya
## (Azərbaycan dili və ədəbiyyatı)

Proqram Odlar Yurdu Universitetinin ″Filologiya və humanitar fənlər ″ kafedrasının 24.01.2023-cü il tarixli (Protokol №5) iclasında müzakirə edilmiş və universitetin Elmi Şurasının 26.01.2023 - cü il tarixli (Protokol № 6) qərarı ilə təsdiq edilmişdir.

**BAKI 2023**

**Tərtib edən:** Odlar Yurdu Universitetinin “Filologiya və humanitar fənlər” kafedrasının dosenti Osman Ənvər oğlu Musayev

**Rəyçi:** Odlar Yurdu Universitetinin “Filologiya və humanitar fənlər” kafedrasının müəllimi fil.ü.f.d. Nuridə Zabit qızı Muxtarzadə

Təcrübə proqramı OYU-nun “Karyera və təcrübə” mərkəzi ilə razılaşdırılıb.

“Karyera və təcrübə” mərkəzinin həmsədri:

________________________ dos. F.İ.İbadov

“Karyera və təcrübə” mərkəzinin həmsədri:

________________________ K.E.Məmmədova

**“Odlar Yurdu Universiteti” nəşriyyatı**

**2023**

## Giriş

Son illər Azərbaycan folklorşunaslıq elmində ciddi inkişaf baş vermiş, təhsil sistemində aparılan islahatlarla əlaqədar tədrisin qarşısında qoyulan tələblər, əsas götürülən meyarlar xeyli yenilənmiş və dəyişilmişdir. Bu proqram folklorşünaslığın elmi-nəzəri səviyyəsini, folklorun tədrisi və toplanması ilə bağlı prinsipləri, standartları əsas götürməklə hazırlanmışdır. Bütün bu amillər proqramda nəzərə alınmışdır.

Tərtib edilmiş proqramda folklor və dialektologiya üzrə istehsalat təcrübəsinin başlıca xüsusiyyətləri və onun qarşısında duran vəzifələr konkret şəkildə müəyyənləşdirilmişdir.

Azərbaycan folkloru təcrübəsi qarşısında duran başlıca vəzifə Azərbaycan şifahi xalq ədəbiyyatını əsaslı surətdə öyrənmək, bu sahədəki müasir nəzəri bilikləri əməli şəkildə daha da dərinləşdirmək, gələcək filoloq, Azərbaycan dili və ədəbiyyatı müəlliminin hərtərəfli inkişafına, başqa cür desək, zəngin və tükənməz olan şifahi yaradıcılıq nümunələrinin toplanması, nəşri seçilməsi və təhlil edilməsi bacarığına yiyələnməsinə kömək etməkdən ibarətdir.

## İstehsalat təcrübəsinin məqsədləri

Tədris planının tələblərinə uyğun olaraq Azərbaycan şifahi xalq ədəbiyyatı və dialektologiya üzrə istehsalat təcrübısinin elmi və metodiki xarakter daşıdığını nəzərə alaraq, onun qarşısında duran məqsəd və vəzifələri təxmini aşağıdakı kimi müəyyənləşdirmək olar:

-Təcrübə təlim məqsədi daşımalıdır, yəni filoloq tələbələrin şifähi xalq ədəbiyyatına və dialektologiyaya dair nəzəri biliyini genişləndirib dərinləşdirməlidir;

-Folklor təcrübəsinin gedişi zamanı tələbələrə folklor toplayıcısının əsas iş vərdişlərini və ustalığını aşılamaq lazımdır.

-Təcrübə elmi məqsəd daşımalıdır; yəni folklor maraqlısı olan tələbələrə xalq ədəbiyyatı əsərlərini toplamaq, tədqiq edib öyrənməkdə kömək etməli, onlar şifahi ədəbiyyat nümunələrinin xalq arasında, məişətdə necə yaranıb yaşadığını ilk dəfə müstəqil müşahidə etmək təşəbbüsünə istiqamətləndiril məlidir.

-Təcrübəçi folklor toplayıcısının əsas iş vərdişlərinə nə qədər ciddi-cəhd göstərsə, onun folklor nümunələrinin necə variantlaşdığını müşahidə etməyə marağı bir o qədər artar, şifahi xalq yaradıcılığının nümunələrini daha dəqiq yazıya alar, tam və dərindən öyrənər.

-Təcrübə zamanı qeydə alınmış folklor nümunələri elmi rəhbərin köməyi ilə diqqətlə yazıya köçürülməli, sənədləşdirilməli, gələcəkdə kafedranın həmin materialları nəşrə hazırlaya bilməsi üçün ilkin hazırlıq işi görməlidir.

## İstehsalat təcrübəsinin vəzifələri

Proqram tələbələrin təcrübə müddətində folklor materiallarını toplamağa dair gündəlik işinin əsas məzmununu təyin edir. Proqramdan bilavasitə praktika dövründə, iş prosesində istifadə olunması məqsədəuyğun hesab edilir. Çünki proqram folklorun mühüm mövzuları üzrə sorğu-sual şəklində elə tərtib edilmişdir ki, bu, bir tərəfdən, tələbələrin öz müsahibi ilə yaxın ünsiyyətdə olmasını təmin edir, digər tərəfdən, həmin suallara əsaslı cavablar almağa imkan yaradır.

Proqramdakı sorğu-sual şifahi xalq ədəbiyyatının müasir dövrdə yaranma və nəsildən-nəslə verilmə, variantlaşma xüsusiyyətləri nəzərə alınaraq şərh edilir. Yadda saxlamaq lazıımdır ki, folklorun zəngin janrları müxtəlif coğrafı ərazilərdə eyni səviyyədə yayılmır. Ona görə ki, folklor toplayıcısı folklor ənənəsinin müasir vəziyyətini müəyyənləşdirərək yazıya aldığı

şifahi xalq ədəbiyyatı nümunəsinin tam və fəal yaşadığını, yaxud həmin nümunənin dəyişikliyə məruz qalıb ancaq müsahibinin yaddaşında qalan hissələri qeyd etdiyini, nəhayət, onun hazırda ifa olunub- olunmadığını müəyyən etməlidir.

Proqram təcrübəyə gedən tələbələr üçün tərtib edilmişdir. Ona görə də oraya daxil edilmiş sorğu-sual olduğu kimi peşəkar ifaçılar üçün münasib deyildi. Yadda saxlamaq lazımdır ki, ifaçılar - nağılçılar, aşıqlar, müğənnilər folklorun elmi təsnifini, nağıl, əfsanə, dastan, nəğmə və sairənin folklorşünaslıqda necə və hansı istilahlarla adlandırıldığını ya bilmir, ya da buna heç bir əhəmiyyət vermirlər. Odur ki, sual elə şəkildə verilməlidir ki, ifaçı bir tərəfdən, sorğu-sualı düzgün, ikinci tərəfdən isə nəql etdiyi folklor nümunəsinin necə və hansı formada yayıldığını təfsilatı ilə söyləyə bilsin.

Proqramdan istifadə edərkən həm də belə bir cəhəti nəzərə almaq lazımdır ki, orada qoyulmuş məsələlər suallar toplayıcının ifaçı ilə apardığı iş qaydasını tam şəkildə müəyyən etmir. Təqdim olunan sorğu-sual təxminidir. Belə ki, təcrübəçi verdiyi bir suala müsbət, başqa bir suala isə mənfı cavab ala bilər. İş prosesində, yəni folklor materiallarını toplayarkən yeni, mühüm suallar meydana çıxa bilər. Deməli, məsələyə yaradıcı yanaşmalı, nəzəri biliyini təcrübədə tətbiq etməlidir.

Xalqın adət və ənənələrinin, estetik ideallarının, xarici işğalçılara, yerli zülmkarlara qarşı mübarizə tarixini, vətənpərvərlik, humanizm, beynəlmiləlçilik, gözəl gələcək və s. haqqında baxışlarının bədii ifadəsi olan Azərbaycan folkloru əsərlərini yazıya alarkən, tədqiq və təhlil edərkən şifahi xalq ədəbiyyatının xüsusiyyətlərini də nəzərdən qaçırmaq olmaz. Unutmaq olmaz ki, yaşlı adamların və ya aşıqların dilindən eşidərkən yazıya köçürülən əsərlər söyləndiyi müddətdən çox- çox əvvəllər

yarandığı və şifahi halda müxtəlif ifaçılar tərəfindərı istənildiyi şəkildə təkrar edilib yayıldığı üçün dəyişikliyə məruz qalıb variantlara düşə bilər.

Folklor nümunələrini yazıya alarkən dialekt xüsusiyyətlərinə ciddi əməl etmək lazımdır. Dastançı, nağılçı, yaxud folklor bilicisi nümunəni necə söyləyirsə, hansı dialektdə danışırsa, eləcə də yazıya almaq lazımdır. Folklor nümunələrində düzəliş və təhlil etmək olmaz. Yazıya alınan nümunə yazıya alınma yerində pasportlaşdırılmalıdır. Yeni toplanan folklor nümunəsinin pasportunda onun nə vaxt, kim tərəfindən, hansı ərazidən və kimdən toplanması mütləq qeyd edilməlidir.

Toplama zamanı diktafon, fotoaparat, videokamera telefon və s. texniki vasitələrdən istifadə edilməsi toplama işinin keyfiyyətini yüksəldir.

Toplanmış nümunələr inventarlaşdırılmalı və müvafiq institutun, yaxud kafedranın arxivində saxlanmalıdır. Vaxtaşırı olaraq institut, kafedra həmin nümunələrin nəşrinə təşəbbüs göstərməlidir.

## Bakalavr pilləsinin strukturunda istehsalat təcrübəsinin yeri

İstehsalat təcrübəsi tələbələrin peşə və praktiki hazırlığına birbaşa yönəlmiş bakalavr təhsilinin məcburi bir növüdür.

İş təcrübəsi bakalavr tələbələri üçün təhsil proqramlarının tərkib hissəsidir. İstehsalat təcrübəsi bakalavrların nəzəri kursların mənimsənilməsi nəticəsində əldə etdikləri bilik və bacarıqları möhkəmləndirir, praktiki vərdişləri inkişaf etdirir və tələbələrin ümumi mədəni və peşə səriştələrinin kompleks şəkildə formalaşmasına töhfə verir.

Təhsil Proqramlara uyğun olaraq bakalavr tələbəsinin istehsalat təcrübəsi humanitar, sosial - iqtisadi, riyaziyyat və təbiət elmlərinin akademik fənləri və peşə tsiklləri üzrə əvvəllər əldə edilmiş biliklərə əsaslanır. İstehsalat təcrübəsinin məzmunu məntiqi və metodik cəhətdən öyrənilən fənlərlə sıx bağlıdır, çünki istehsalat təcrübəsinin əsas məqsədi, ilk növbədə, bu fənlərin öyrənilməsi zamanı tələbələrin əldə etdikləri nəzəri bilikləri və praktiki bacarıqları möhkəmləndirmək və dərinləşdirməkdir. Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisasinda istehsalat təcrübəsi əsasən Azəbaycan şifahi xalq ədəbiyyatı və dialektologiya fənləri üzrə aparılır.

## İstehsalat təcrübəsinin keçirilmə yeri və vaxtı

"Filologiya" (Azərbaycan dili və ədəbiyyatı) istiqaməti üzrə təhsil alan bakalavriat tələbələri üçün istehsalat təcrübəsinin əsasları təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq təsərrüfat xidmətlərini əhatə edən təşkilatlar ola bilər.

Müqavilə əsasən təşkilatda təcrübə keçmək üçün təlimatlar, tələbələrə onların istəkləri və təcrübəyə cavabdeh şəxsin tövsiyələri nəzərə alınmaqla verilir. Təcrübə yerinin dəyişdirilməsi müstəsna hallarda həyata keçirilir.

Əyani təhsil alan və ixtisası üzrə işləyən 4-cü kurs bakalavr tələbələri təcrübə keçməyə məsul şəxslə təcrübə yerini razılaşdıraraq ixtisasına uyğun olan iş yerində təcrübə keçə bilərlər.

Tələbə fərdi qaydada təcrübə keçmək niyyətindədirsə, o zaman təcrübənin başlanmasına iki ay qalmış təşkilatdan təcrübə keçmək üçün yerin və fərdi tapşırıqların verilməsini təsdiq edən məktub təqdim etməli, yeri göstərməklə müvafiq kafedraya və "Təcrübə və Karyera" Mərkəzinə müraciət etməlidir.

Təcrübənin müddəti müvafiq tədris ili üçün tədris planına və tədris prosesinin cədvəlinə uyğun olaraq müəyyən edilir. İstehsalat Təcrübəsi müddəti təhsil dövrünün əvvəlində Elmi Şurada təsdiqlənir və kurrikulumda (tədris planında) əks olunur. İstehsalat təcrübəsi IV (dördüncü) təhsil ilinin VIII (səkkizinci) semestrində həyata keçirilir.

**Bakalavr tələbəsinin təcrübə keçməsi nəticəsində formalaşan kompetensiyaları**

İstehsalat təcrübəsinin keçirilməsi nəticəsində tələbə aşağıdakı praktiki bacarıqlara yiyələnməlidir:

- tələbələr folklorun ayri-ayri janrları üzərində müşahidələr aparmağı və fərqləndirməyi bacarmalıdır;
- təcrübə yeri, informator haqqında dürüst məlumatları qiymətləndirməyi bacarmalıdır;
- informatorlarla ünsiyyət qurmağı, onları danışdırmaq qabiliyyətinə malik olmalıdır;
- folklorun janr xüsusiyyətlərini nəzərə alaraq folklor söyləyicisinin işinə müdaxilə etməməlidir;
- folklor söyləyicisinə əlavə sual və göstərişlərin verilməməsini təmin etməlidir;
- toplama işində müasir texniki avadanlıqlardan- audio-video və telefon vasitələrindən səmərəli istifadə bacarığına malik olmalıdır.

**İstehsalat təcrübəsi nəticəsində tələbə bilməlidir:**

- folklorun toplandığı yerin sosial-etnik xüsusiyyətlərini;
- folklor söyləyicisinin maraq dairəsini müəyyənləşdirməyi;

- toplama prosesində janrlar üzrə söyləyicilərə veriləcək sualları müəyyənləşdirməyi;
- dramatik və epik növün janrlarına aid nümunələrin toplanmasının özəl xüsusiyyətlərini nəzərə almağı.

**İstehsalat təcrübəsi nəticəsində tələbə bacarmalıdır:**

- toplama işində texniki avadanlıqlardan mükəmməl şəkildə istifadə etməyi;
- topladığı materialları sistemli şəkildə qruplaşdırmağı;
- topladığı materialları söyləyicinin ifasında olduğu kimi yazıya almağı;
- toplama materiallarını nəşrə hazırlamağı;
- toplama materiallarını pasportlaşdırmağı və arxivləşdirməyi bacarmalıdır.

**İstehsalat təcrübəsi nəticəsində tələbə sahib olmalıdır:**

- tələbə elmi- nəzəri biliklərlə təcrübi vərdişləri sintez etməyi;
- folklorun tarixin müxtəlif mərhələlərində yaşama özünəməxsuluğunun əsas xüsusiyyətlərini;
- folklorun yaranması haqqında nəzəriyyələri təcrübədə tətbiq etməyi;
- təcrübə müddətində ona verilmiş elmi-nəzəri tapşırıqları praktikada tətbiq etməyi;
- bədii əsərlədən folklor motivlərini müəyyənləşdirməyi.

## İstehsalat təcrübəsinin strukturu və məzmunu

Bakalavrların istehsalat təcrübəsi bir neçə mərhələdən ibarətdir. Hər bir mərhələ üçün təcrübə rəhbəri xüsusi tapşırıqlar yarada bilər.

Birinci hazırlıq mərhələsində təcrübə yeri ilə tanışlıq, təşkilati iclas, istehsalat brifinqi, o cümlədən təhlükəsizlik təlimatı verilir. Təcrübənin ikinci mərhələsi onun faktiki keçididir.

Bu mərhələnin məqsədi təşkilatın təşkilati strukturunu, idarəetmə sistemini, miqyasını və hüquqi formasını öyrənməkdir. Tələbələr təcrübə keçdikləri təşkilatın müəyyən struktur bölməsi tərəfindən yerinə yetirilən funksiyaların tərkibini və məzmununu öyrənməli, digər bölmələrlə qarşılıqlı əlaqə mexanizmlərini müəyyən etməli, təşkilatın/struktur bölmənin fəaliyyətinin təkmilləşdirilməsi üçün təkliflər tərtib etməlidirlər.

Bundan əlavə, aşağıdakı işlər həyata keçirilməlidir:

-təşkilatın elmi-texniki ədəbiyyat sahəsində filologiya ixtisasının inkişaf perspektivləri və fəaliyyəti öyrənilir;

-təşkilatın son 1-2 ildə folklor və dilçilik sahəsində apapdığı elmi-nəzəri və praktik işləri təhlil edilir;

-təşkilatın və ya onun struktur bölməsinin kadr tərkibinin təhlili aparılmalıdır.

Təcrübənin bu mərhələsini uğurla həyata keçirmək üçün tələbəyə, tərcümə prosesinin  inkişafı və həlli yollarından, tərcümə sahəsində tərcüməçinin rolu və fəaliyyəti haqqında illik hesabatından, balans hesabatından və toplanmış təcrübədən və qazanılan bilikləri tətbiq etmək və ədəbiyyaşünasləgın və dilçiliyin bütün prinsiplərini özündə əks etdirən  nəzəri prinsiplərdən istifadə etmək tövsiyə edilə bilər.

**İstehsalat təcrübəsinin keçirilməsi üçün təxmini plan**

İstehsalat təcrübəsinin təşkili və keçirilməsi üç mərhələdən ibarətdir:

1. Hazırlıq mərhələ
2. Əsas (iş) mərhələ
3. Yekun mərhələ

Birinci mərhələdə təcrübə yerlərinin axtarılması, bakalavr buraxılış işlərinin mövzularının müəyyən edilməsi və təcrübə üzrə fərdi iş planının təsdiq edilməsi yerinə yetirilir.

İkinci iş mərhələsində tələbələr müəyyən edilmiş müddətlərdə təcrübələrini keçir və yekun hesabatlarını kafedradan olan rəhbərlərinə təqdim edirlər.

Üçüncü yekun mərhələdə isə tələbələr təcrübə hesabatlarını kafedra komissiyasının qarşısında müdafiə edirlər.

**Hazırlıq mərhələsi:**

15 sentyabr tarixindən tələbələr təcrübəyə başlayacaqları günə qədər davam edir və aşağıdakılarla nəticələnir:

- Buraxılış işlərinin kafedra tərəfindən təsdiq olunması və tələbələr tərəfindən seçilməsi;
- Kafedranın təsdiq etdiyi və tələbələrin konkret təcrübə yerlərinin müəyyən edilməsi;
- Tələbələrin təcrübə yerləri və rəhbərləri ilə tanışlığı;
- Tələbələrin təcrübə rəhbərləri arasında iş bölgüsünün aparılması;
- Kafedra tərəfindən təcrübənin keçirilməsinə dair kompleks fərdi planlarının hazırlanaraq onun kafedra müdiri və təşkilat tərəfindən təsdiqlənməsi.

## Əsas (iş) mərhələsi

Əsas (iş) mərhələ 16 fevral tarixindən 25 may tarixinə qədər davam edir. Bu mərhələ tələbələrin təcrübə proqramı və fərdi iş planını yerinə yetirilməsi ilə nəticələnir.

Əsas mərhələ özündə aşağıdakı modulları (fərdi tapşırıqların yerinə yetirlməsi mərhələləri) və onun nəticələrini əks etdirir.

Ümumi modul tələbənin təşkilatla ümumi tanışlığını, onun fəaliyyət sahələrini, daxili strukturunu, tarixi, istehsalat texnologiyaları, idarəetmə sisteminin və təşkilatın perspektiv inkişafının öyrənilməsini nəzərdə tutur.

Xüsusi modul təşkilatın fəaliyyətinin əhatə dairəsi, əməkdaşların vəzifə öhdəliklərinin təhlili və ya onun hazırlanması, fərdi tapşırığın hazırlanması, zəruri məlumatların toplanılması, tapşırığın hesablanma və analitik hissəsini nəzərdə tutur.

İxtisaslaşdırılmış modul ixtisas işinin əsası olmaqla təcrübənin nəticələrinə görə yekun təkliflərin və tövsiyələrin hazırlanmasını, empirik məlumatların toplanması və təhlilini nəzərdə tutur.

Bu mərhələ ümumi və xüsusi modul materiallarının da istifadə edilməsi ilə təcrübə hesabatının tərtib olunması ilə nəticələnir.

Filologiya ixtisası üzrə ixtisaslaşan tələbələrin istehsalat təcrübəsinin məzmunu

### I. Ümumi modul.

Təcrübə bazası olan təşkilatın ümumi xarakteristikası.

Müəssisəsinin faəliyyət göstərdiyi sahə üzrə strukturunun öyrənilməsi:

- Müəssisənin adı, inkişaf tarixi, yerləşdiyi ərazi,

- Müəssisənin fəaliyyətinin hüquqi əsası,
- Müəssisəin əsas fəaliyyəti haqqında məlumat,
- Tənzimləyici təşkilatla və digər dövlət qurumlar, ilə əlaqəsi - lisenziya növləri, dövrilik və hesabatların təqdim etmə qaydaları,
- Müəssisənin idarəetmə strukturu,
- Daxili şöbələr,
- Müəssisənin strateji planı haqqında məlumat,
- Müəssisənin strukruru, tərkibi, missiyası və digər məlumatları

**II. Xüsusi modul**

Təcrübə keçirilən müəssisə və obyektlərin hərtərəfli səciyyələndirilməsi

- Təcrübə kecirilən folklor və dilçilik üzrə şöbənin təşkilati strukturu,
- Müəssisədə şöbə müdirləri və supervayzerlər,
- Funksional məsələlər,
- Müəssisənin əməkdaşlarının funksiyaları və vəzifələri,
- Müəssisənin və onun təşkilatı bölmələrin fəaliyyətinin normativ - hüquqi bazası,
- Mütəxəssislərin işə cəlbedilməsi üsulları,
- Xidmət göstərmək haqqında müqavilələrin növləri və formaları,
- Xidmət göstərilmə texnologiyaları,
- Daxili uçot və nəzarət sistemi;

**III. İxtisaslaşdırılmış modul**

Müəsisədə göstərilən xidmətlər:

- Təcrübəçilərin isləməsi üçün münbit şəraitin olması,

- Müəssisədə, toplama işini yerinə yetirmək üçün müasir texniki avadanlıqların və kompüterlırin mövcudluğu,
- Toplama prosesinin elmi-nəzəri əsaslarının fəaliyyəti haqqında məlumat,
- Folklorun və dialektologiyanın ayrı-ayrı sahələri üzrə aparılan toplama materıallarının nəticələri və ümumi hesabat,
- Folklorun və dialektologiyanın praktik-nəzəri əhəmiyyəti haqqında məlumat,
- Toplama materiallarının məna xətalarından, təhriflərə aparıb çıxaran problemlərdən irəli gələn müddəalar haqqında konsolidə edilmiş hesabat,
- Toplanmış materiallarının qruplaşdırılması təhlili və şərhi haqqında hesabat,
- Toplama materiallarının pasportlaşdırılması və nəşrə hazırlanması haqqında hesabat,

**Təcrübə hesabatinin tərtib olunmasina dair metodik göstərişlər**

Təcrübə hesabatının məzmun və strukturuna aid olan əsas tələblər:

Təcrübə haqqında hesabat təcrübə proqramı və tələbənin fərdi tapşırığı əsasında tərtib edilməlidir.

Hesabatda fərdi tapşırıqlarda yazılan suallara olan cavablar da əks olunmalıdır.

Hesabat aşağıdakılardan ibarətdir:

- Ümumi modul üzrə hesabat: Müəssisənin adı, inkişaf tarixi, xarakteristikası, idarəetmə orqanları və strukturu, əsas fəaliyyət növləri, sektorda payı,

- Xüsusi modul üzrə hesabat: Müəsisənin struktur bölmələrinin təsviri, daxili sənədləşməsinin və fəaliyyətini tənzimləyən normativ bazanın öyrənilməsi,
- Tələbənin istər təcrübə keçdiyi bölmənin, istərsədə bütün təşkilatın fəaliyyətinin toplama prosesi göstəricilərinin ümumi təhlili və materialların səciyyələndirilməsi,

İxtisaslaşdırılmış modul üzrə hesabat: Cıxarılan nəticələr, tələbə tərəfindən müəssisənin nəzdində fəaliyyət göstərən şöbənin fəaliyyətinə dair aparılan təhlillərin nəticələrinə görə təklif və tövsiyyələrin hazırlanması.

Hesabata həmçinin tələbə tərəfindən təcrübə yerində topladığı və müəsisənin real fəaliyyətinin göstəricilərini əks etdirən müxtəlif sənədlər, hesablamalar və cədvəllər əlavə olunur.

**Təcrübə hesabatının tərtib edilməsinə dair tələblər:**

Hesabatın həcmi - əlavələr istisna olmaqla, kompüter yazısı ilə 10-15 səhifə olmalıdır.

Hesabat "Times New Roman" şrifti, 14 ölçüdə və 1,5 aralıqla çap edilməlidir. Kağızın formatı A4, yuxarı və aşağı sahələrdən 2sm, sağdan 1 sm və soldan 3sm olmalıdır. Hesabat qovluğa tikilir.

Analitik tədqiqatların nəticələri qrafik və diaqramların köməyi ilə illustrasiya edilə bilər.

Analitik hesablamalar əks olunan cədvəllərin adı və sıra nömrəsi olmalıdır. Hesabatın titul vərəqi qoyulan tələblərə müvafiq olaraq tərtib olunmalıdır.

Tələbələr hesabatla bərabər ona olan əlavələri (əgər varsa) ayrı qovluqda kafedraya təqdim edirlər. Bura aşağıdakılar daxildir:

- Toplama işi üzrə hesabat formalarının surəti;

- Hesabatda əlavə olaraq elmi-nəzəri informasiya;
- Müəsisənin fəaliyyətinə dair daxili normativ əsasnaməsinin surəti.

## Aralıq attestasiyanın formaları (təcrübənin nəticələrinə əsasən)

İstehsalat təcrübəsinin sonunda tələbə hesabat verir. Təcrübə hesabatını müdafiə edərkən proqramın və təcrübə tapşırıqlarının həcmi, təcrübə hesabatının tərtib edilməsinin düzgünlüyü və məzmununun keyfiyyəti, təcrübə rəhbəri tərəfindən verilən suallara cavabların düzgünlüyü, o cümlədən təşkilatdan təcrübə rəhbərin rəyi nəzərə alınır.

## Proqrama əlavə

Filologiya (Azərbaycan dili və ədəbiyyat)ixtisasında aparılan istehsalat təcrübəsi özəl xüsusiyyətlərə malikdir. Təcrübəçi-tələbə daha çox folklor söyləyicisi ilə işləyir. Onun isə bu sahədə vərdişləri yoxdur. Söyləyicinin (informatorun) maraq dairəsini nəzərə almaqla, onu sərbəst danışdırmaq üçün suallar verilməlidir. Bu çətinliyi nəzərə alaraq nümunə üçün folklorun hər janrına aid suallari da proqrama əlavə edirik.

## ƏMƏK NƏĞMƏLƏRİ

-Əkin, biçin və səpin vaxtı hansı nəğmələr ifa olunurdu? Mal-qara  ilk dəfə yaylağa çıxaırılarkən qədimdə hansı adətlər mövcud idi, hazırda hansı adətlər həyata keçirilir? Heyvan, cüt, kotan və s. ilə əlaqədar müasir holavarlar varmı? Holavar hansı forma xüsusiyyətinə görə bayatıya bənzəyir? İlk nümunələr necə idi?

-Qədim görüş, etiqad və s. təsəvvürlərlə bağlı nə kimi

nümunələr yaranmışdır? Hansı fala baxma qaydaları olmuşdur? Fala baxarkən xüsusi mahnılar ifa edilirdimi? Falabaxma mərasimlərində kimlər iştirak edirdilər? Düyü, yaxud başqa taxılla, buğda və arpa ilə fala baxırdılarmı? Hazırda falabaxma adətləri varmı?

-Əkinçiliklə əlaqədar dramatik-lirik səhnəciklər təşkil olunurdumu? Qədimdə əkcinçi ilə öküz necə deyişirdi və bunun nə kimi əhəmiyyəti vardır?

-Heyvanların, ağacların və digər bitkilərin bir-biri ilə bəhs etməsi haqqında nəğmələr mövcuddurmu? Bəhs vaxtı hansı şeir şəklindən istifadə edilirdi?

-Heyvanların bəhsi zamanı hansı musiqi alətində ifa olunurdu? Bəhs vaxtı heyvanlar öz mənfəətlərini və təsərrüfatdakı mövqelərini necə ifadə edirdilər?

-Heyvanlara aid mahnılarda totemizm dövrünün hansı qalıqları mühafızə olunurdu? Orada totemizmə necə münasibət bəsləmişlər? Heyvanalara aid hansı mahnılar yaranmışdır? Bu mahnılar kimlər tərəfindən və hansı məqsədlə ifa edilirdi?

## MÖVSÜM MƏRASİMLƏRİ

- Mərasimlər nə vaxt və hansı hadisə ilə əlaqədar təşkil edilirdi? Ovsun, sehr və əfsunlar hansı məqsəd izləyirdi? Vəsf-hal adəti necə keçirilirdi? Xalq inancları, alqış, qarğış və sehrlərdən danışıq dilində qalanı varmı?

- Yazın gəlməsi münasibəti ilə hansı mərasimlər təşkil olunurdu? Həmin mərasimlərin mahnıları yaşayırmı?

- Əski bayramlardan hansılar xatırlanır? Yaşadığınız ərazidə və yaxud rayonda hansı xalq bayramları keçirilir? Həmin adətlər hazırda yaşayırmı?

- Novruzu necə qarşılayırdılar? Novruz bayramı günlərində hansı şənliklər, xalq oyunları və qədim adətlər icra

edilirdi? Həmin adətlər hazırda yaşayırmı? Novruzda ənənəlik və yenilikləri necə müşahidə etdiniz?

- Günəşə sitayiş necə və hansı görüşlərlə yaranmışdır? Günəşi dəvətlə əlaqədar hansı mahnılar oxunmuş və onların janr, ideya və şəkli xüsusiyyətləri haqqında nə bilirsiniz? Ay və Günəş əhvalatı ilə əlaqədar hansı folklor nümunələri yaranmışdır?
- Qışa təsir göstərmək üçün qədim insanlar hansı nəğmələr ifa etmişlər?
- Dolunun qabağını almaq və ya yağış yağdırmaq məqsədi ilə hansı qədim etiqad, təsəvvürlər mövcud olmuşdur? Bu barədəki nəğmələrdən yadda qalanı varmı? Ya da belə nəğmələri oxuyan və ya xatırlayan varmı?
- Keçmişdə uzun müddət quraqlıq keçəndə hansı mövsüm mərasimləri təşkil olunurdu? Bu zaman hansı mahnılar oxunurdu? Quraqlığın qarşısını almaq üçün təşkil edilən mərasim və oxunan mahnılar necə adlanır?

## AİLƏ-MƏİŞƏT MƏRASİMLƏRİ

- Ənənəvi toy mərasimləri necə olmuşdur? Qızvermə, arvad elçiliyi, kişi elçiliyi və nişan mərasimləri keçmişdə necə keçirilirdi, hazırda necə keçirilir? Kəbinkəsmə mərasimi keçmişdə necə olmuşdur, hazırda necədir? Bu barədə hansı nəğmələr var?
- Xınayaxma adətləri nə vaxt və necə keçirilir? Qız evində və oğlan evində toy adətləri qədimdə necə olmuşdur, hazırda necədir? Sağdış, soldış hansı vəzifələri yerinə yetirirlər? Toy şənliklərində hansı havaları çalıb- oynayırlar? Bəyi və gəlini tərif edərı hansı nəğmələr var?
- Elçilik, yaxud nişanlanma zaman hansı mahnılar və kimlər tərəfindən ifa edilirdi? Gəlin oğlan evinə gətirilərkən qayınana, bacılar hansı mahnıları oxuyur və gəlini necə

qarşılayırdılar?

- Hazırda müstəqil şəkildə yaşayan toy mərasimi nəğmələri varmı? Qədim mərasimlər öz əhəmiyyətini hazırda saxlamışdırmı, yoxsa onlar müasir lirik əsərlərlə əvəz olunmuşdur?

- Toy şənlikləri ilin daha çox hansı fəslində keçirilmiş və keçirilir? Müasir toylar ənənəvi toylardan nə ilə fərqlənir? Köhnə toy adətlərinə münasibət nə vaxt dəyişilmişdir? Gənclər, orta və yaşlı nəsil ənənəvi mərasimlərə ııecə baxırlar?

- Qədim toy adətlərini yaxşı bilən ifaçılar varmı? İfaçıların yaxşı yaddaşı nə ilə izah olunur? Orada doğulmaq və ad qoymaqla əlaqədar adətlər, nəğmələr nə şəkildə olmuşdur?

- Yas yerlərində hansı məişət mərasimləri keçirilirdi? Bu mərasimlər keçirilərkən hansı nəğmələr ifa edilirdi?

- Kişilərin, qadınların, qızların, uşaqların, yaxud cavanların yas mərasimləri hansı cəhətləri ilə fərqlənirdi? Əhalinin yaşca müxtəlif olan qruplarının yas mərasiminin keçirilməsi zərurətinə necə münasibət bəslənilmişdir? Qədim yas mərasimləri ilə yeni yas mərasimləri arasında hansı fərqli cəhətləri görürlər?

- Keçmişdə və hazırda ağı demə mərasimi təşkil edilmiş və edilirmi? Yas mərasimi zamanı oxunan ağıların məzmun və forma xüsusiyyətləri necədir? Yas mərasiminin təşkilində peşəkar ifaçılar dəvət olunurdumu? Bu nəğmələrin xalqın dünyagörüşü ilə əlaqəsi necədir?

- Mərasim nəğmələrinin xalqın tarixini, həyatını, məişətini, dünyagörüşünü öyrənmək üçün nə kimi əhəmiyyəti vardir?

- Hazırda hansı məişət mərasimləri təşkil olunur? Bu mərasimlərdə hansı nəğmələr ifa edilir? Orada bədahətən

(fıkirləşmədən) lirik əsərlər söyləyən şəxslər varmı? Onların əsas sənətı və məşğuliyyəti nədir?

## OYUNLAR VƏ MEYDAN TAMAŞALARI

- Təbiət hadisələri ilə əlaqədar, yaxud bayram şənlikləri ilə bağlı hansı tamaşalar təşkil edilirdi? Əyləncələr kimlər tərəfındən təşkil olunur, hansı səhnəciklər oynanılır və bu zaman hansı dialoqlardan istifadə edilir? Şənlik zamanı hansı geyimlərdən, maska və qrimdən istifadə olunur? “Aktyorlar” tanınmağa çalışırdılarmı və nəyə görə? Tamaşaçılar buna necə baxırdılar?

- Keçmişdə mərasimlə əlaqədar tamaşalar keçirilirdimi? “Kosa-gəlin” yaxud “Kosa-kosa”, əmək məşğuliyyəti və əkinçiliklə əlaqədar tamaşalar göstərilirdimi? Bu oyunlar nə vaxt və harada keçirilirdi? Xalq tamaşaları kimlər tərəfindən təşkil olunur və onlar necə qurulurdu?

- İctimai xarakter daşıyan satirik tamaşalar təşkil olunurdumu? Bu tamaşalarda tənqid hədəfı kimlərdir? Xalq mənfi tiplərə necə münasibət bəsləyirdi?

- Ailə-məişət mövzusunda tamaşaların nə kimi etik və estetik əhəmiyyəti vardır? Dram və tamaşa ünsürləri olan başqa mərasimlər, xalq oyunları da olmuşdur? Bu tamaşalarda xalqın təfəkkür tərzi necə ifadə olunmuşdur? Meydan tamaşalarının və fərdi tamaşaların hansı tipləri xalq arasında bu gün yaşayır? Hansıları yaddaşda qalır?

- Hazırda maskara paltarı geymək, xalq tamaşaları göstərmək ənənəsi davam edirmi? Şəbihlər və dini tamaşalar nə vaxtdan keçirilmir? Onları hansı tamaşalar əvəz etmişdir? Xalq arasında dini tamaşalara münasibət necədir?

**NAĞILLAR, MİFLƏR, ƏFSANƏLƏR VƏ RƏVAYƏTLƏR**

- Xalq içərisində bu folklor janrlarını ifa edənləri necə adlandırırlar? Sənətkarlar nağılı digər epik janrlardan (rəvayət, əsatir, əfsanə, lətifə, hekayə və s.) hansı xüsusiyyətlərinə görə fərqləndirirlər?

- Nağıllar nə vaxt, hansı şəraitdə (ailədə, açıq havada, şənlik məclislərində, istirahət vaxtlarında) danışılırdı?

- Hazırda hansı nağılları nə vaxt, hansı məişət şəraitində və kimlər üçün söyləyirdilər?

- Hansı nağıllar dinləyicilərin tərkibindən asılı olaraq danışılır? Uşaqlar üçün, böyüklər üçün nağıllar, "kişi" nağılları, "qadın" nağılları yaşayırmı?

- Nağılı danışarkən dinləyicilər nağılçıya necə təsir göstərirlər? Bu zaman nağılın, mətnin və s. söyləmə tərzi dəyişikliyə məruz qalırmı?

- Nağılçı danışdığı folklor əsərinə necə münasibətbəsləyir? Onlar nağılın təsirli olması üçün hansı bədii vasitələrdən istifadə edirlər? İfaçı nağılın mənasını, onun məqsədini necə başa düşür?

- Nağılçılar hansı nağıllara daha çox rəğbət göstərirlər və bu onların repertuarında necə əks olunur?

- Nağılçı ifaçılıq sənətini necə başa düşür? İfa edilən nağılın janr xüsusiyyətindən, dinləyicilərin tərkibindəıı asılı olaraq nağılın ifadə tərzi (mimika, əl-qol, baş hərəkəti, səs, avaz) dəyişilirmi? Nağılçılar bu dəyişikliklərin obyektiv səbəblərini özləri başa düşürlər?

- Nağılın emosional təsirini artırmaq üçün ifaçı hansı müqəddimə, giriş və sonluqlardan istifadə edə bilər?

- İfaçı nə üçün nağılçı olmuşdur? Ona nağıl danışmağı kim öyrətmişdir? Bu sənətin mənşəyi (şifahi ənənə, kitab,

radio)nə olmuşdur?

- Nağılçılar həmyerliləri içərisində məşhurdurlarmı? Dinləyicilər öz nağılları haqqında hansı rəydədirlər?

- Nağılların yaranıb-yayılmasında peşəkar nağılçılaırın xidməti nədən ibarətdir?

- Həmin ərazidə nağılların ayrı-ayrı sujetləri eyni səviyyədə yayılmışdırmı? Orada bu və ya digər sujetin (qəhrəmanlıq, yaxud məhəbbət) geniş yayılmasının səbəbi nə ilə izah olunur?

- Həmin ərazidə sehrli nağıllara necə münasibət bəslənir? Hansı sehrli nağıllar daha çox yayılmışdır?

- Dinləyicllər alleqorik nağıllara necə baxırlar? Bu nağılların əsas qəhrəmanları və iştirakçıları hansı heyvanlardır? Uşaqların etik-estetik tərbiyəsində alleqorik nağılların nə kimi rolu və əhəmiyyəti vardır?

- Tarixi nağıllar başqa nağıllardan hansı xüsusiyyətiəri ilə fərqlənir? Bu nağıllarda xalqın tarixi hadisələrə münasibəti necə əks olunmuşdur?

- Məişət nağıllarında hansı ictimai zümrələr tənqid edilir? Onlarda əsas müsbət qəhrəmanlar kimlərdir və onlar öz düşmənlərinə necə qalib gəlirlər?

- Əfsanə nağıldan hansı xüsusiyyətlərinə görə fərqlənir? Nağılçı ona necə münasibət bəsləyir? Bu janrın mənşəyi haqqında hansı flkir mövcuddur? Hansı əfsanələr geniş yayılmışdır?

- Müşahidə etdiyiniz ərazidə rəvayətvə əfsanənin hansı nümunələri vardı?

- Əfsanə hansı həyat şəraitində, nə məqsədlə və kimlər üçün nağıl olunur? Belə nümunələr sizdə varmı?

- Hər hansı rəvayət və əfsanənin ideya-bədii səviyyəsi

nağılçının şəxsiyyəti, biliyi, istedadı ilə bağlıdırmı? Dinlədiyiniz əfsanənin məzmunu yerli hadisələr və nağılçıların şəxsi təcrübəsi-ilə əlaqədardırmı? Əfsanə və ya rəvayətin məzmunu ölkənin, rayonun, kəndin tarixi ilə səsləşirmi?

- İfaçının nitqi dinləyicilərə necə təsir göstərir? Onlar haqqında danşılan hadisəyə inanırlarmı İfaçıların özləri verdikləri məlumata necə münasibət bəsləyirlər?

- Dinləyicilərin tərkibindən, vəziyyət və əfsanənin məqsədindən asılı olaraq, həmin nümunələrin forma və ifadə tərzində hansı dəyişkənliklər baş verir?

- Dünyanın yaranması - göy qurşağı, qövsü-quzey, ay, torpaq və s. haqqında hansı əfsanə və rəvayətlər mövcuddur? Orada canlı və cansız aləmdə baş verən "qəribəlikləri" necəizah edirlər? Milli miflərimiz xalq arasında hansı şəkildə yaşayır? Hal anası, qulyabanı, qar adamı, xortdan haqqında hansı rəvayətlər söylənilir?

- Lətifə-nağıl, rəvayət və əfsanədən hansı janr xüsusiyyətlərinə görə fərqlənir? Lətifələrdən nə kimi hikmətli nəticələr çıxarırlar? Belə nümunələrə xalq arasında təsadüf edilirmi? Hansı şəxsiyyətlərin adı ilə bağlı lətifələr vardır?

- Məişət, tərbiyə mövzusunda müasir lətifələr yaranıb-yaşayırmı? Orada özü lətifə yaradıb danışan şəxslər varmı? Əhali o cür adamlara necə münasibət bəsləyir'?

- Dinləyib topladığınız lətifələr sənətkarlıq nöqteyi-nəzərdən necə təsir bağışlayır? Onları necə qruplaşdırırsınız?

## UŞAQ FOLKLORU

- Hazırda uşaqlar üçün hansı xüsusi əsərlər ifa olunur? Həmin ərazidə hansı laylalar, əyləndirici mahnılar yaşayır? Layla və oxşamaların müasir nümunələri yaranırmı? Oyun və

hərəkətlərlə müşayiət edilən mahnılar varmı?

- Hansı əsərlər uşaqların özləri tərəfindən, yalnız uşaq auditoriyalarında ifa olunur? Uşaqlar tapmaca və yanıltmaclar bilirlərmi? Onlar hansılardır?

- Uşaqlar arasında hansı oyunlar geniş yayılmışdır? Bu oyunlarda kimlər iştirak edirlər? Hər bir oyunda neçə nəfər və hansı yaşlı uşaqlar iştirak edirbr? Oğlanlar və qızlar üçün ayrıca oyunlar varmı? Oyun necə, nə vaxt və hansı yerlərdə keçirilir? Oyun zamanı hansı nəğmələr ifa edilir?

- Uşaqlar qorxulu hadisələr "qorxulu" nağıllar bilirlərmi? Onlar öz aralarında hansı nağılları danışırlar?

- Müasir dövrdə hansı uşaq folklor əsərləri yaranmışdır?

- Olduğunuz ərazidə və ya rayonda uşaq folklorunun daha hansı janrları mövcuddur?

## TAPMACALAR

- Tapmacaların hansı növləri müşahidə edilmişdir? Tapmacaları başqa janrlardan hansı cəhətlər fərqləndirir?

- Tapmacaların neçə tərəfı olur? Orada iki, daha artıq cavabı olan müxtəlif tapmacalar müşahidə olunurmu? Eyni cavabı olan miixtəlif tapmacalar eşitmisinizmi?

- Sizin topladığınız tapmacalar ən çox həyatın hansı səhnələrini əks etdirir? Onların içərisində təsərrüfat, bağçılıq, əkinçilik və s. ilə əlaqədar olan tapmacalar varmı?

- Məktəblilərin təfəkkürü, hafizəsi, dilinin zənginləşməsində tapmacaların nə kimi əhəmiyyəti vardır?

- Tapmacaların bir növü olan bağlamalara təsadüf edlirmi? Onlar tapmacalardan hansı cəhətləri ilə fərqlənir? Topladığınız tapmacaları necə qruplaşdırırsınız?

## ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

- Atalar sözü və məsəllər başqa janrlardan hansı

xüsusiyyətlərinə görə fərqlənir? İfaçıların fikrincə, hansı folklor əsərləri atalar sözü və məsəl hesab edilir?

- Bu iki janrın hansı oxşar cəhətləri vardır və onlar bir-birindən hansı cəhətlərlə seçilir? Bunlar şifahi və yazılı nitqdə hansı məqsədlə istifadə edilir?
- Atalar sözü və məsəllərin xalqın dünyagörüşü, həyata baxışı, əxlaqi görüşləri ilənə kimi əlaqəsi vardır? Müşahidə apardığınız ərazidə yerli koloritli tarixi, məişət, təbiət və s. hadisələri əks etdirən atalar sözü və məsəllər mövcuddurmu?
- Hansı atalar sözü və məsəllər bilavasitə əmək, zəhmət, vətənpərvərlik, qəhrəmanlıqla əlaqədar yaranmışdır?
- Sizin topladığınız atalar sözü və məsəllərin nə kimi tərbiyəvi, nəsihətamiz, didaktik əhəmiyyəti vardır?
- Atalar sözü və məsəlləri öyrətməkdə məktəbin, kitabın, radionun və s. nə kimi rolu vardır?
- Atalar sözü və məsəllər başqa adlarla da yaşayırmı? Hansı nümunələri söyləyə bilərsiniz?

## BAYATILAR

- Bayatılar başqa lirik janrlardan hansı xüsusiyyətləri ilə fərqlənirlər? Bayatı və mahnılar arasında janr fərqləri necə göstərilir? Olduğunuz ərazidə bu janr necə yayılmışdır? Bunun səbəbi nə ilə izah olunur? Orada bayatıların xüsusi və peşəkar ifaçıları kimlərdir, əhali onlara necə münasibət bəsləyir?
- Qələmə aldığınız bayatıları mövzu və ideyalarına görə necə qruplaşdırmaq olar? Köhnə həyat haqqında olan bayatılarda xalq məişətinin hansı cəhətləri ifadə olunur?
- Müəllifi məlum olan bayatılara təsadüf etmisiniznıi? Hansı bayatılar musiqi ilə əlaqədardır? Olduğunuz ərazi və rayonda vaxtilə məşhur bayatı ustaları yaşayıbmı, bayatı deyənlər, ağıçılar varmı?

- Yerli səciyyə daşıyan bayatılar mövcuddurmu? Yeni bayatılar yaranırmı, mövzusu haradan götürülür?

- Layla, oxşama sayaçı sözlərinin bayatıyla hansı oxşar və fərqli cəhətləri vardır? Hansı nünunələr daha əvvəl yaranmışdır? İfaçılar bayatının təsir gücünü artırmaq üçün hansı təsvir və ifadə vasitələrindən istifadə edirlər?

## AŞIQ POEZİYASI

- Aşıq sənətini folklorun digər janrlarından hansı spesifik xüsusiyyətlər ayırır? Olduğunuz ərazidə aşıq sənətinə necə münasibət bəslənilir? Aşığın repertuarında hansı folklor əsərləri (ictimai-siyasi, ailə-məişət, məhəbbət) mühüm yer tutmuş və tutur? Keçmişdə aşıqlar öz repertuarında satirik və yumoristik nəğmələrə yer ayırmışlarmı?

- Hansı aşıqlar xalq arasında daha geniş tanınmışlar? Dinləyicilər onlara hansı xüsusiyyətlərinə görə (gözəl səsinə,ifaçılıq ustalığına, yaradıcılıq məharətinə) rəğbət bəsləyirlər? Aşıqların yaşından asılı olaraq onların repertuarı dəyişirmi?

- Həmin ərazidə el şairləri (xalq şeri tərzində yazan sənətkarlar) yaşamış və yaşayırmı? Onların həyat və yaradıcılığına dair nə kimi məlumat vardır?

- Aşıq mahnıları hansı məişət şəraitində-açıq havada, toyda, şənlik məclislərində ifa edilmiş və edilir? Dinləyicilər hansı aşıq havalarını daha çox sevirlər və nəyə görə? İfaçıların sevimli mahnıları varmı? Bu mahnıları onlara sevdirən hansı xüsusiyyətlərdir? Aşığın ifa etdiyi havalar hansı şeir formaları ilə əlaqədardır? Naməlum hansı saz havalarını bilirsiniz? Hansı aşığın yaradıcılığını söyləyə bilərsiniz?

- Olduğunuz rayonda və ərazidə bədii-özfəaliyyət dərnəyi varmı? Özfəaliyyət dərnəyi,' radio, kino, televiziya aşıqların

müasir repertuarına necə təsir göstərir? Müasir estradadakı gənclərin mahnı repertuarına təsiri necədir? Xalq mahnılarından estradada necə istifadə edilir? Hansı xalq mahnısını bilirsiniz?

## DASTANLAR

- Dastan janrı xalq arasında hansı istilahlarala (dastan, hekayət, qissə, nağıl və s.) tanınır? İfaçıların fıkrincə, dastan folklorun başqa epik növlərindən hansı xüsusiyyətinə görə fərqlənir? Xalq dastan söyləyənləri necə adlandırır? Dastan necə ifa olunurdanışılır, söylənilir, oxunur, nağıl edilir
- Dastanalar nə vaxt vəhansı şənlik məclislərində, ifa edilmiş və edilir?
- Təcrübədə olduğunuz ərazidə dastanların hansı növü daha geniş yayılmışdır? Bunun səbəbi nə ilə izah olunur? Hansı şərait /məişət, ictimai-tarixi dastanların yaşamasına müsbət təsir göstərmiş, hansı mühit isə, əksinə, onların hafızələrdən silinməsini şərtləndirmişdir? Dastanda, hər şeydən əvvəl, hansı hissələr əsərin sujeti, nəzm hissələri, məzmunu və s. unudulur?
- Dastanlar keçmişdə və hazırda hansı məqsədlə ifa edilmiş və edilir? İfaçılar dastanların nəsildən-nəsilə verilməsində nə kimi rol oynamışlar?
- İfaçılar dastanın ideyası və məzmununa necə münasibət bəsləyirlər? Onlar danışılan hadisənin reallığına inanırlarmı? İfaçı real olmayan, yaxud təhrif olunan tarıxi hadisələri necə başa düşür?
- Həmin ərazidə dastan söyləyəni hamı tanıyırmı? Dinləyicilər onlara necə münasibət bəsləyirlər? Dastançıların repertuarı necə təşkil edilir?
- İfaçılar dastanın tarixi nəğmələr və hadisələrlə səsləndiyini necə izah edirlər?
- İfaçı dastan söyləməyi kimdən (nağılçıdan, aşıqdan) və

nədən (kitabdan) öyrənmişdır? İfaçıların ustadı başqalarından hansı cəhətinə görə seçilirdi? Hazırda ifaçılar dastanlarla əsaslı surətdə necə tanış olmuşlar? Hansı ustad aşıqlar var? Onların repertuarını yazıya almaq olarmı? Yaradıcı aşıqların repertuarında hansı sujetlər əks olunur?

- Həmin ərazidə dastanları nağıl kimi danışan ifaçılar varmı? Dastanın maraqlı olmasını və emosionallığını artırmaq üçün ifaçı hansı üsullardan istiafdə edir? Dastan mərasim nəğmələri kimi ifa edilirmi?

- Dastan söyləyənin repertuarına hansı folklor əsərləri daxildir? Dastan janrı onun repertuarında necə yer tutur?

- İfaçılar tarixi və qəhrəmanlıq nəğmələrini dastanlardan fəıqləndirə bilirlərmi? Bu nəğmələrin özünəməxsus yaranma və yaşama yolları varmı? İndi belə nəğmələr yaranırmı?

- XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində baş vermiş kəndli hərəkatı başçıları haqqında yaranrmş nəğmələr necə adlanır? Qaçaq Nəbi və Qaçaq Kərəm haqqında hansı nəğmələr yaranmışdır? Bu nəğmələr Koroğlu haqqındakıəfsanələrdən hansı xüsusiyyətləri ilə fərqlənir? Xalq arasında Koroğlu qəhrəmanlığı ilə bağlı hansı nəğmələr və qollar var?

- Qaçaq Nəbi və Qaçaq Kərəmi təcrübədə olduğunuz ərazidə şəxsən görən və ya tanıyan şəxslər olmuşdurmu? Onların haqqında qəhrəmanlıq nəğmələrini ilk dəfə kimlər ifa etmişlər? Nəğmələrin əsasında qoyulan tarixi hadisələrin mahiyyətini ifaçılar necə izah edirlər? “Qaçaq Nəbi” və “Qaçaq Kərəm” əsərlərində tarixi hadisələr dastançılıq ənənələrinə uyğun şəkildə ifadə edilmişdirmi? Bu dastanlar klassik qəhrəmanlıq dastanlarından hansı forma və quruluş xüsusiyyətlərinə görə fərqlənir?

- İfaçılara hansı ailə-məişət ailə-əxlaq, məhəbbət dastanları məlumdur? Onlar dastanlardakı konflikti necə başa düşürlər?

- Hazırda hansı tarixi mahnılar və qəhrəmanlıq nəğməiəri fəal surətdə ifa edilir? Bunun səbəbini nə ilə izah etmək olar?

- Hansı nümunələrdə tariximizin izləri əks olunur? Şifahi tariximizi öyrənməyə maraq varmı?

- Müasir dövrdə aşıq yaradıcılığını inkişaf etdirmək üçün hansı tədbirlər həyata keçirilir? Müasir dövr aşıq poeziyasının forma və məzmun rəngarəngliyi klassik poeziyadan hansı xüsusiyyətləri ilə fərqlənir?

- Xalq arasında şifahi ədəbiyyata maraq necədir? Hansı nümunələr daha çox oxunur?

**″Filologiya ″(Azərbaycan dili və ədəbiyyat) ixtisası üzrə İstehsalat təcrübəsinin təqvim planı**

| Sıra № | Mövzunun adı | Təcrübə yeri | Qeyd |
|---|---|---|---|
| 1. | Təcrübə yeri ilə tanışlıq<br>Azərbaycan folkor nümunələrinin toplanması, nəşri tarixi ilə tanışlıq. | | 4 saat |
| 2. | Folklor nümunələrinin toplanması qaydaları. | | 4 saat |
| 3. | XVIII əsrin sonu XIX əsin əvvəllərində folklora marağın artması.<br>Folklorşünaslıqla bağlı tarixi nəzəriyyələrin təcrübi əhəmiyyəti . | | 4 saat |
| 4. | Azərbaycan folklorşünaslığı elminin yaranma tarixi.<br>XIX əsrdə Azərbaycan folklorşünaslığı | | 4 saat |
| 5. | Folklor nümunələrinin yazıya alınması qaydaları | | 4 saat |
| 6. | XX əsrdə Azərbaycan folklorşünaslığı | | 4 saat |
| 7. | Azərbaycan folklorşünaslığında elmi-nəzəri metodlar | | 4 saat |
| 8. | Folklorun və dialekt materiallarının toplanması qaydaları | | 4 saat |
| 9. | Lirik növün janrlarına aid nümunələrin toplanması tarixi.<br>Xalq poeziyasının mənşəyi. Əmək və mərasim nəğmələrinin toplanması və nəşri. | | 4 saat |
| 10. | Folklorun yaranması ilə bağlı əsas | | 4 saat |

| | | | |
|---|---|---|---|
| | nəzəriyyələr | | |
| 11. | Bayatıların cünklərdə yazıya alınması. Toplanması və nəşri. Xalq mahnıları. | | 4 saat |
| 12. | Folklorun ən qədim janrlarının toplanması və nəşri tarixi | | 4 saat |
| 13. | Xalq dramları nümunələrini toplamaq. | | 4 saat |
| 14. | Folklorun epik növünə aid janrların poetikası. | | 4 saat |
| 15. | Folklorun lirik növünün toplanması və yazıya alınması | | 4 saat |
| 16. | Nağıllar, rəva-yətlər və əfsa-nələr haqqında məlumat | | 4 saat |
| 17. | Folklorun epik növünün toplanması və yazıya alınması | | 4 saat |
| 18. | Azərbaycan mifologiyası. | | 4 saat |
| 19. | Aşıq sənəntinin mənşəyi. Aşıq şeirinin şəkilləri | | 4 saat |
| 20. | Azərbaycan mifologiyasına aid nümunələr toplamaq və yazıya almaq | | 4 saat |
| 21. | Azərbaycanın görkəmli aşıqları. A. Tufarqanlı. Qur-bani. Sarı Aşıq. Xəstə Qasım. | | 4 saat |
| 22. | Azərbaycan aşıq sənətinin yaranması. Aşıq şeiri nümunələrinin toplanması və nəşri | | 4 saat |
| 23. | XIX əsr Azərbaycan aşıq sənətində yeniliklər Aşıq şeirində ictimai məzmunun güclənməsi | | 4 saat |
| 24. | Aşıq mühitləri haqqında anlayış | | 4 saat |
| 25. | Azərbaycan mifologiyasına aid | | 4 saat |

| | | | |
|---|---|---|---|
| | nümunələr toplamaq | | |
| 26. | Dastanlar. Kitabi Dədə Qorqudun nəşri tarixindən. | | 4 saat |
| 27. | Dastan.<br>Məhəbbət dastanlarının toplanması və nəşri. | | 4 saat |
| 28. | Koroğlu dastanı. Əsas qollar. Dastanın variantları. | | 4 saat |
| 29. | Məhəbbət dastanları. “Əsli və Kərəm”, “Aşıq Qərib”, “Abbas və Gülgəz”, “Şah İsmayıl” | | 4 saat |
| 30. | Qəhrəmanlıq  dastanlarının toplanması və nəşri | | 4 saat |
| 31. | Azərbaycan dilində dialekt fərqlərinin yaranması | | 4 saat |
| 32. | Dialektologiyanın anlayış və terminləri: şivələr, keçid şivələr | | 4 saat |
| 33. | Azərbaycan dilinin dialekt leksikası | | 4 saat |
| 34. | Azərbaycan dili dialektlərinin təsnifi və tədqiqi tarixi | | 4 saat |
| 35. | Dialektlərin öyrənilməsinin əhəmiyyəti | | 4 saat |
| 36. | Azərbaycan dilinin dialekt leksikasında ilkin mənasını və fonetik tərkibini saxlayan sözlər | | 4 saat |
| 37. | Dialekt və şivələrin tərkibində alınma sözlər | | 4 saat |
| 38. | Azərbaycan dilinin dialekt leksikasında ilkin mənasını saxlamaqla fonetik dəyişikliyə uğrayan sözlər | | 4 saat |

| | | | |
|---|---|---|---|
| 39. | Azərbaycan dilinin dialekt bölünməsi. Oğuz qrupu türk dillərinin ümumi və fərqli xüsusiyyətləri | | 4 saat |
| 40. | Azərbaycan dilində məhəlli xüsusiyyətlərin yaranmasını şərtləndirən amillər | | 4 saat |
| 41. | Əsas ləhcələrin və qarışıq tipli şivələrin səciyyəvi xüsusiyyətləri | | 4 saat |
| 42. | Azərbaycan dili şivələrinin təsnifatı problemi | | 4 saat |
| 43. | Şivə, şivələr qrupu, ləhcə, dialekt | | 4 saat |
| 44. | Azərbaycan və türk dilinin dialekt qatından başqa dillərə keçmiş sözlər | | 4 saat |
| 45. | Azərbaycan və türk dillərinin ədəbi dil və dialekt qatında çarpazlaşan ortaq leksik vahidlər | | 4 saat |
| 46. | Qəbilə, tayfa dövrü ilə bağlı dialekt və şivələr | | 4 saat |
| 47. | Sovet hakimiyyəti illərində dialekt və şivələrimizdə əmələ gələn dəyişikliklər | | 4 saat |
| 48. | Dialekt və şivələrin leksik xüsusiyyətləri: terminoloji səciyyə daşıyan və daşımayan sözlər | | 4 saat |
| 49. | Dialekt və şivələr: Quba dialekti | | 4 saat |
| 50. | Dialekt və şivələr: Bakı dialekti | | 4 saat |
| 51. | Naxçıvan dialekt leksikasında Azərbaycan və qohum dillərə aid qədim | | 4 saat |

| | | | |
|---|---|---|---|
| | türk mənşəli sözlər | | |
| 52. | Dialekt və şivələr: Şamaxı, İsmayıllı və Mərəzə dialekti | | 4 saat |
| 53. | Muğan qrupu şivələri | | 4 saat |
| 54. | Dialekt və şivələr: Göycay, Ağdaş şivələri | | 4 saat |
| 55. | Naxçıvan qrupu şivələrinin Güney Azərbaycan və Şərqi Anadolu şivələri ilə fonetik müqayisəsi | | 4 saat |
| 56. | Naxçıvan qrupu şivələrinin əsas xüsusiyyətləri | | 4 saat |
| 57. | Qazax-Ağstafa bolgələrinin şivə və dialektləti | | 4 saat |
| 58. | Qarabağ dialekti | | 4 saat |
| 59. | Azərbaycan dili və onun dialektlərində novlaşma prosesi | | 4 saat |
| 60. | İstehsalat təcrübəsinin yekunu | | 4 saat |
| 61. | Təqdimatların keçirilməsi | | 4 saat |

## İstifadə olunmuş ədəbiyyat


**1.** H.Araslı. Aşıq yaradıcılığı. Bakı, 1960.

**2.** M.H.Təhmasib. Azərbaycan xalq dastanları, orta əsrlər. Bakı: Elm, 1972.

**3.** V.Vəliyev. Azərbaycan folkloru. Bakı, 1985.

**4.** P.Əfəndiyev. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 1992.

**5.** P.Əfəndiyev. Azərbaycan folklorşünaslığının tarixi. Bakı, 1994

**6.** A.Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı: 2 cilddə, Bakı: Elm, I c. - 2002, II c. - 2006.

**7.** M.Allahverdiyev. Azərbaycarı xalq teatrı. Bakı: Maarif, 1978.

**8.** A.Nəbiyev. Azərbaycan folklorunun janrları. Bakı,1983.

**9.** A.Nəbiyev. E1 nəğmələri, xalq oyunları. Bakı, 1988.

**10.** Nəğmələr, inanclar, alqışlar. Bakı. 1986 (toplayanı A.Nəbiyevdir).

**11.** Novruz bayramı. Bakı: Yazıçı, 1990 (toplayanı A.Nəbiyevdir).

**12.** Azərbaycan nağılları, toplayanı və nəşrə hazırlayanı N.Seyidov, Bakı: Azərnəşr, 1976.

**13.** Azərbaycan nağılları: 5 cillddə, Bakı: 1960

**14.** Azərbaycan dastanları: 5 cilddə, Bakı: Şərq-Qərb,2005.

**15.** Azərbaycan nağılları: 5 cilddə, Bakı: Şərq-Qərb,2005.

**16.** Çəmənzəminli Y.V. Azərbaycan nağıllarının əhval-ruhiyyəsi (1926), Əsərləri: 3 cilddə, Bakı: 2004.

**17.** Azərbaycan ədəbiyyatı tarixi: 6 cilddə, I c. Bakı: Elm,2004.

**18.** P.Əfəndiyev.Azərbaycan Şifahi xalq ədəbiyyatı,Bakı 2013

**19.** Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, “Şərq-Qərb”, 2007

**20.** Azərbaycan dilinin Dərbənd dialekti. Bakı: Elm, 2009

**21.** Abdulla Vəliyev.Azərbaycan dilinin keçid şivələri. Bakı, 2005

**22.** Elbrus Əzizov.Azərbaycan dilinin tarixi dialektologiyası:Dialekt sisteminin təşəkkülü və inkişafı. Bakı:Bakı Universiteti nəşriyyatı, 2016

**23.** Əzizxan Tanrıverdi. Kitabi-Dədə Qorqud və qərb ləhcəsi. Bakı, Nurlan, 2004